# Prezident İlham Əliyevin tapşırığına əsasən ictimaiyyət nümayəndələri ilə görüşlər keçirilib

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, onların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, ərizə və şikayətlərə baxılaraq həll edilməsi üçün müvafiq tədbirlər görülür.

Baş Prokurorluğun mətbuat xidmətindən bildiriblər ki, bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov fevralın 19-da Kürdəmir Rayon Prokurorluğunun inzibati binasında Kürdəmir, Şamaxı, İsmayıllı, Ağsu, Qobustan və Göyçay rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Z.Qaralov bölgədə yaşayan 27 vətəndaşın müraciətində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün əlaqədar strukturların rəhbərlərinə və rayon prokurorlarına müvafiq göstərişlər verib.

Daha sonra qeyd edilən rayonların prokurorlarının iştirakı ilə müşavirə keçirilib. Müşavirədə bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verilib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulunun düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqları diqqətə çatdırılıb.

* * *

Fevralın 19-da gənclər və idman naziri Azad Rəhimov Balakən, Oğuz, Qax, Qəbələ, Şəki, Zaqatala və İsmayıllı rayonlarından olan vətəndaşları qəbul edib.

Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, İsmayıllı rayonundakı Heydər Əliyev Mərkəzində keçirilən qəbulda 30-a yaxın vətəndaş iştirak edib.

Müraciətlər gənclər və idman mərkəzlərinin tikintisi və müvafiq avadanlıqlarla təmin edilməsi, sahibkarlığın inkişafı ilə bağlı kreditlərin verilməsi, işlə təminat və digər məsələlərlə bağlı olub. Müraciətlərdə, həmçinin qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq tədbirlərdə iştirakı, yay istirahət düşərgələrinin təşkili, Gənclər Mərkəzlərinin müvafiq avadanlıqlarla təmini və fəaliyyətinə dair məsələlər qaldırılıb.

Qəbul zamanı idman sahəsində fəxri adların verilməsi, idman mərkəzlərinin avadanlıqlarla təmin olunması, Olimpiya İdman komplekslərinin, idman qurğularının tikintisi və təmiri, uşaq gənclər və idman mərkəzlərinin və bölmələrin yaradılması üzrə müraciətlərə də baxılıb.

Bir sıra müraciətlər yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

* * *

Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev fevralın 19-da Sumqayıtın Tarixi Muzeyində Abşeron, Xızı, həmçinin Qubadlı, Zəngilan, Şuşa rayonlarından və Sumqayıtdan olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl nazir Əbülfəs Qarayev və Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Nazirliyin struktur rəhbərlərinin iştirakı ilə keçirilən qəbul zamanı vətəndaşların müraciətləri əsasən tarix və mədəniyyət abidələrinin qorunması, mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, təmiri, fəxri adların verilməsi, işlə təmin olunma və digər məsələlərlə bağlı olub.

Qəbula 30-a yaxın vətəndaş yazılıb. Nazir Əbülfəs Qarayev hər bir vətəndaşı diqqətlə dinləyib, onların müraciət və təkliflərinin həlli üçün müvafiq göstərişlər verib.

Vətəndaşlar onlar üçün yaradılan şəraitdən razılıqlarını bildiriblər.

* * *

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Məleykə Abbaszadə fevralın 19-da Şamaxı şəhərindəki Heydər Əliyev Mərkəzində Şamaxı, Qobustan, İsmayıllı və Qəbələ rayonlarından olan vətəndaşları qəbul edib.

Əvvəlcə TQDK-nın sədri M.Abbaszadə və rayon icra hakimiyyətinin başçısı Asif Ağayev şəhərin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Qəbula gələn vətəndaşlar TQDK sədri tərəfindən diqqətlə dinlənilib. Müraciətlər əsasən magistraturaya qəbul, sınaq imtahanlarının sayının artırılması, bakalavr səviyyəsinə qəbul qaydaları, buraxılış imtahanları, ali məktəblərə qəbul, təhsil haqqı və digər məsələlərlə bağlı olub. Müraciətlərin əksəriyyəti yerindəcə, operativ həll edilib. Araşdırılması zəruri olan müraciətlər isə qeydiyyata alınıb, həlli üçün nəzarətə götürülüb. Komissiyanın səlahiyyətlərinə aid olmayan məsələlər isə müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Vətəndaşlar qəbulun təşkilinə və yaradılan şəraitə görə razılıqlarını bildiriblər.

Məlumat üçün qeyd edək ki, qəbulla bağlı vətəndaşlara kütləvi informasiya vasitələri və komissiyanın internet resursları vasitəsilə qabaqcadan məlumat verilib. Qəbula gəlmək istəyənlərin komissiyanın internet saytında, TQDK-nın Göyçay regional bölməsində, habelə müvafiq rayonların təhsil şöbələrində qeydiyyatı aparılıb.

* * *

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir, onların müraciətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Qəbul cədvəlinə əsasən, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova fevralın 19-da Beyləqan şəhərindəki Gənclər Mərkəzində Beyləqan, Ağcabədi, Laçın, Xocavənd, Tərtər, Füzuli, Bərdə və Ağdam rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbulda komitə sədri tərəfindən vətəndaşların fikir və təklifləri dinlənilib. Vətəndaşlar əsasən erkən nikah və boşanmaların yaratdığı problemlər, qadın və uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığına məruz qalma, sağlamlıq məsələləri və məcburi köçkünlərin evlə təminatı ilə əlaqədar müraciətlər ediblər. Müraciətlərin bir çoxu elə yerindəcə həll edilib, bəzi məsələlər isə araşdırılmaq üçün nəzarətə götürülüb.

Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlərlə əlaqədar vətəndaşlara hərtərəfli izahat verilib, icrası nəzarətdə saxlanılmaqla aidiyyəti strukturlara çatdırılacağı bildirilib.

Vətəndaşlar mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə bu cür qəbulların keçirilməsinə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

Dövlət Komitəsinin sədri Hicran Hüseynova, həmçinin Beyləqan rayonunun fəal qadınlarının bir qrupu ilə də görüşüb.

**AZƏRTAC**